**Azərbaycan Respublikasının**
**Konstitusiya Məhkəməsinə**

*Sorğuverən:* **Azərbaycan Respublikasının**
**İnsan Hüquqları üzrə Müvəkkili**
**(Ombudsman) Səbinə Əliyeva**

*Sorğuverənin nümayəndəsi:* **Azərbaycan Respublikasının**
**İnsan Hüquqları üzrə Müvəkkili**
**(Ombudsman) Aparatının**
**Elmi-analitik sektorunun müdiri**
**Məmmədov Mahir Nəcəf oğlu**

**Azərbaycan Respublikasının *7 fevral 2006-cı il tarixli 54-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Əmək pensiyaları haqqında"* Azərbaycan Respublikası Qanununun 9.6-cı maddəsinin Azərbaycan Respublikasının Konstitusiyasının 13-cu maddəsinin (Mülkiyyət) 1-ci hissəsinə, 25-ci maddəsinə (Bərabərlik hüququ), 29-cu maddəsinin (Mülkiyyət hüququ) I-IV hissələrinə, 38-ci maddəsinin (Sosial təminat hüququ) I, III hissələrinə, 149-cu maddəsinin I və III hissələrinə uyğunluğunun yoxlanılmasına dair**

## SORĞU

Sorğuverənin Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə sorğu ilə müraciət etmək hüququ Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VII hissəsi, habelə «Konstitusiya Məhkəməsi haqqında» Azərbaycan Respublikası Qanununun 32.1-ci maddəsi ilə müəyyən edilmişdir.

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən sorğuya baxılması səlahiyyəti Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsi, habelə «Konstitusiya Məhkəməsi haqqında» Azərbaycan Respublikası Qanununun

32.1-ci maddəsi ilə müəyyən edilmişdir.

Barəsində sorğu verilən normativ-hüquqi akt: **Azərbaycan Respublikasının** ***7 fevral 2006-cı il tarixli 54-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Əmək pensiyaları haqqında"*** **Azərbaycan Respublikası Qanunu.**

Sorğu verilən normativ-hüquqi aktı qəbul etmiş orqan: **Azərbaycan Respublikasının Milli Məclisi.**

Sorğu verilən normativ-hüquqi aktın qəbul edildiyi tarix və nömrə: ***7 fevral 2006-cı il tarixli 54-IIIQ nömrəli.***

Sorğu verilən normativ-hüquqi aktın dərc edildiyi mənbə: **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2006-cı il, №12, maddə 1019).**

"Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununun (bundan sonra Qanunun) 37.3.1-ci maddəsinə (Əmək pensiyasının və əmək pensiyasına əlavənin ödənilməsi (çatdırılması) qaydaları) əsasən, yaşa görə əmək pensiyasının pensiya təyin olunan günədək qazanılmış sığorta hissəsi tam məbləğdə ödənilir. Pensiya təyin olunduqdan sonrakı dövr üzrə qazanılan sığorta və yığım hissələri üzrə pensiya kapitalının toplanması davam etdirilir və şəxslər işləməyən əmək pensiyaçısı kateqoriyasına keçdikdə, *yaxud pensiya təyin olunduğu gündən sonra 6 il və daha çox işlədikdə* həmin dövr üzrə sığorta və yığım hissələrinin hesablanmasında gözlənilən pensiya ödənişi müddəti aylarının sayı pensiyaçının pensiya yaşından sonra işlədiyi ayların miqdarı qədər, lakin 72 aydan artıq olmamaqla azaldılaraq əmək pensiyası yenidən hesablanır. *Sonrakı belə hesablamalar bu maddədə göstərilən şərt nəzərə alınmaqla hər növbəti 6 ildən bir həyata keçirilir.*

Göründüyü kimi, adıçəkilən norma ilə bağlı qanunvericiliyin ümumi yanaşmasında bütün işləyən əmək pensiyaçılarına münasibətdə istisnasız olaraq əmək pensiyalarının yenidən hesablanması şərtləri və qaydası müəyyən edilmişdir.

Həmin Qanunun 9.6-cı maddəsinə (Güzəştli şərtlərlə əmək pensiyası hüququ olan digər şəxslər) əsasən, *hərbi qulluqçulara əmək pensiyası hərbi xidmət dövründə deyil, hərbi xidmətdən buraxıldıqdan sonra təyin olunur. Əmək pensiyası təyin olunduqdan sonra hərbi xidmətini davam etdirən əmək pensiyaçılarının pensiyası sonuncu təminat xərcliyinə görə yenidən hesablanmır. Bu kateqoriyadan olan şəxslərin əmək pensiyası yalnız fərdi hesablarında qeydə alınmış sığorta pensiya kapitalına görə yenidən hesablana bilər.*

Qanunvericiliyin bu normasında isə göründüyü kimi, hərbi xidmətini davam etdirən əmək pensiyaçılarının yalnız fərdi hesabında qeydə alınmış sığorta kapitalına görə pensiyasının yenidən hesablanması hüququ vardır. Bundan fərqli olaraq ehtiyyatda olub, başqa sahədə (qeyri hərbi - mülki sahədə) çalışan, *hərbi xidmətini davam etdirməyən əmək pensiyaçılara münasibətdə isə* sosial sığorta hesabındakı pensiya kapitalına görə pensiyaya əlavə hesablana bilməz.

Qanunvericilikdə belə bir vəziyyətin mövcud olması Azərbaycan Respublikasının Konstitusiyasının 25-ci maddəsi (Bərabərlik hüququ), 38-ci maddəsi (Sosial təminat hüququ), 149-cu maddəsinin I və III hissələri ilə birbaşa ziddiyyət təşkil edir.

Belə ki, Konstitusiyanın 25-ci maddəsinin (Bərabərlik hüququ) I hissəsinin tələbinə

görə, hamı qanun və məhkəmə qarşısında bərabərdir. Həmin maddənin V hissəsinin tələbinə görə isə hüquq və vəzifələrlə bağlı qərarlar qəbul edən dövlət orqanları və dövlət hakimiyyəti səlahiyyətlərinin daşıyıcıları ilə münasibətlərdə hər kəsin bərabər hüquqları təmin edilir.

Göründüyü kimi, bərabərlik hüququ hər bir şəxsin qanun və məhkəmə qarşısında hüquq bərabərliyini müəyyən edərək, hər hansı bir şəxsin hüquqi vəziyyətini pisləşdirən müstəsna səlahiyyətin verilməsinin yolverilməzliyini, hüquq münasibətləri subyektlərinin maraqlarına eyni dərəcədə obyektiv və qərəzsiz yanaşmanı şərtləndirir. Hüquq münasibətlərinin bərabər hüquqlu iştirakçılarının birinin digərinə nisbətdə hər hansı üstünlüyə malik olduqda həmin şəxslər arasındakı bərabərlik (hüquq bərabərliyi) pozulmuş olur. Buna görə hüquqların bərabərlıyi heç bir subyektiv amildən və ya mövqedən asılı olmamalı, hüquqların həyata keçirilməsi üçün eyni imkanlar yaradılmalı, hüquq münasıbətləri subyektlərinin maraqları tarazlı şəkildə təmin edilməlidir.

Xüsusi olaraq vurğulamaq lazımdır ki, bərabər vəziyyətdə olan şəxslərə münasibətdə hüquq və vəzifələrlə bağlı fərqli mövqeylərin və üstünlüklərin müəyyən edilməsi, habelə belə güzəştlərdən və ya bərabər imkanlardan digərləri üçün imtina birbaşa olaraq hüquq bərabərliyinin pozulması deməkdir. Heç də təsadüfi deyil ki, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun bir sıra qərarlarında (25 fevral 2014-cü il, 14 noyabr 2014-cü il və s. tarixli) bərabərlik prinsipinin məzmununa dair formalaşdırdığı hüquqi mövqeyə müvafiq olaraq eyni və ya oxşar vəziyyətdə olan şəxslərə eyni rəftarın göstərilməsi tələb olunur və məhz dövlət tərəfindən heç bir ayrı-seçkiliyə yol vermədən hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verilməsini nəzərdə tutur.

Hüquq bərabərliyi eyni zamanda beynəlxalq normativ-hüquqi aktlarının (İnsan Hüquqları haqqında Ümumi Bəyannamənin 7-ci maddəsi, İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasın 14-cü maddəsi və s.) təsiri altına düşür ki, onların tələblərinə də əməl olunmalıdır.

Belə ki, Azərbaycan Respublikasının Konstitusiyasının 151-ci maddəsinə (Beynəlxalq aktların hüquqi qüvvəsi) əsasən Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktlar ilə (Azərbaycan Respublikasının Konstitusiyası və referendumla qəbul edilən aktlar istisna olmaqla) Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, beynəlxalq müqavilələr tətbiq edilir.

Konstitusiyanın 12-ci maddəsinin II hissəsinin tələbinə görə, bu Konstitusiyada sadalanan insan və vətəndaş hüquqları və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir.

Hüquqlara bərabər yanaşma prinsipi Azərbaycan Respublikası Konstitusiyasının 149-cu maddəsinin I hissəsində də öz əksini tapıb. Konstitusiyanın bu müddəası normativ-hüquqi aktların qəbul edilməsi zamanı tənzimlənən hüquq münasibətlərində bərabərlik prinsipinə riayət edilməsini həmin normativ hüquqi aktın legitimliyinin əsas konstitusion şərtlərindən biri kimi irəli sürür.

Konstitusiyanın 38-ci maddəsinə (Sosial təminat hüququ) əsasən, hər kəsin sosial təminat hüququ vardır. Hər kəs qanunla müəyyən edilmiş yaş həddinə çatdıqda, xəstəliyinə, əlilliyinə, ailə başçısını itirdiyinə, əmək qabiliyyətini itirdiyinə, işsizliyə görə

və qanunla nəzərdə tutulmuş digər hallarda sosial təminat hüququna malikdir.

Qanunun 1-ci maddəsində (Əsas anlayışlar) göstərilir ki, fərdi hesab - dövlət sosial sığorta sistemində fərdi uçotu həyata keçirən müvafiq icra hakimiyyəti orqanı tərəfindən hər bir sığortaolunana uçot dövründə daimi (dəyişməz) sosial sığorta nömrəsi ilə açılmış şəxsi hesabdır; pensiya kapitalı - müvafiq olaraq fərdi hesabın sığorta hissəsində qeydə alınan və fərdi hesabın yığım hissəsində toplanan vəsaitlərin məbləğidir.

Qanunvericilikdə fərdi hesaba və pensiya kapitalına verilən anlayışlaradan da bəlli olur ki, şəxsi hesaba cəmlənmiş pul vəsaitləri pensiyaçılara məxsusdur və onlara ödənilməlidir. Heç də təsadüfi deyil ki, sözügedən Qanunun 6-cı maddəsində (Əmək pensiyası ödənişinin maliyyə mənbələri) "Əmək pensiyasının yığım hissəsinin müəyyən edilməsi və ödənilməsi sığortaolunanın fərdi hesabının yığım hissəsində müvafiq vəsait olduğu halda həyata keçirilir." göstərişi təsbit edilmişdir.

Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 135-ci maddəsinin (Əşya hüququnun obyektləri) tələbinə görə, pullar və *sənədli* qiymətli kağızlar da əşyadır. Əmlak istənilən əşyaların və qeyri-maddi əmlak nemətlərinin toplusudur.

Mülkiyyətçinin (pensiyaçının – hərbi xidmətdən pensiyaya çıxıb mülki sahədə əmək fəaliyyətini davam etdirən şəxsin də) qanuni əsaslarla malik olduğu əmlaka (şəxsi hesaba cəmlənmiş pul vəsaitlərinə) sahiblik, istifadə və sərəncam vermək səlahiyyətinə malikdir. Lakin göstərilənlərin tam əksi olaraq, Qanunun 9.6-cı maddəsi ehtiyyatda olub, başqa sahədə (mülki sahədə) çalışan, *hərbi xidmətini davam etdirməyən əmək pensiyaçılara münasibətdə* sosial sığorta hesabındakı pensiya kapitalına görə pensiyaya əlavənin hesablana bilinməməsi, onların Konstitusiyada və mülki qanunvericilikdə təsbit edilmiş mülkiyyət hüququnu pozur. Belə ki, həmin kateqoriyalı şəxslər şəxsi hesablarına cəmlənmiş pul vəsaitlərinin sahibi olmuş olsalar da, onlardan istifadə və onlara dair sərəncam vermək səlahiyyətlərinə malik olmurlar.

Halbuki Azərbaycan Respublikasının Konstitusiyasının 13-cu maddəsinin (Mülkiyyət) 1-ci hissəsinə əsasən, Azərbaycan Respublikasında mülkiyyət toxunulmazdır və dövlət tərəfindən müdafiə olunur.

Konstitusiyanın 29-cu maddəsinin (Mülkiyyət hüququ) I-IV hissələrinə görə, hər kəsin mülkiyyət hüququ vardır. Mülkiyyətin heç bir növünə üstünlük verilmir. Mülkiyyət hüququ, o cümlədən xüsusi mülkiyyət hüququ qanunla qorunur. Hər kəsin mülkiyyətində daşınar və daşınmaz əmlak ola bilər. Mülkiyyət hüququ mülkiyyətçinin təkbaşına və ya başqaları ilə birlikdə əmlaka sahib olmaq, əmlakdan istifadə etmək və onun barəsində sərəncam vermək hüquqlarından ibarətdir. Heç kəs məhkəmənin qərarı olmadan mülkiyyətindən məhrum edilə bilməz.

Qeyd etmək lazımdır ki, Qanunun 9.6-cı maddəsi ilə 37.3.1-ci maddəsi arasında daxili uzlaşma və məntiqi rabitə də yoxdur. Halbuki, "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun 25-ci maddəsinin 1-ci hissəsinin tələbinə görə, normativ hüquqi aktlar daxilən uzlaşdırılmalı, məntiqli qurulmalı və normayaratma texnikasına uyğun olmalıdır.

Qanunun 9.6-cı maddəsi bərabər mənafelərə bərabər münasibət bəslənilməsi prinsipini pozur, normativ-hüquqi akta qarşı irəli sürülən haqq-ədalət meyarlarına cavab vermir və Konstitusiyanın adıçəkilən normalarına uyğun deyildir.

Eyni zamanda Azərbaycan Respublikası Konstitusiyasının 149-cu maddəsinin III hissəsi qanunların Konstitusiyaya zidd olmaması göstərişini müəyyən edir.

Beləliklə, hesab edirik ki, "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununun 9.6-cı maddəsinin Azərbaycan Respublikasının Konstitusiyasının 13-cu maddəsinin (Mülkiyyət) 1-ci hissəsinə, 25-ci maddəsinə (Bərabərlik hüququ), 29-cu maddəsinin (Mülkiyyət hüququ) I-IV hissələrinə, 38-ci maddəsinin (Sosial təminat hüququ) I, III hissələrinə, 149-cu maddəsinin I və III hissələrinə uyğunluğunun yoxlanılmasına zərurət vardır.

Yuxarıda göstərilənləri nəzərə alaraq və Azərbaycan Respublikasının Konstitusiyasının 130-cu maddəsinin VII hissəsini rəhbər tutaraq "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununun 9.6-cı maddəsinin Azərbaycan Respublikasının Konstitusiyasının 13-cu maddəsinin (Mülkiyyət) 1-ci hissəsinə, 25-ci maddəsinə (Bərabərlik hüququ), 29-cu maddəsinin (Mülkiyyət hüququ) I-IV hissələrinə, 38-ci maddəsinin (Sosial təminat hüququ) I, III hissələrinə, 149-cu maddəsinin I və III hissələrinə uyğunluğunun yoxlanılmasını xahiş edirəm.

**Sorğuya əlavə olunur:**

1. Azərbaycan Respublikası Konstitusiyasının 13-cu maddəsinin (Mülkiyyət) 1-ci hissəsinin, 25-ci maddəsinin (Bərabərlik hüququ), 29-cu maddəsinin (Mülkiyyət hüququ) I-IV hissələrinin, 38-ci maddəsinin (Sosial təminat hüququ) I, III hissələrinin, 149-cu maddəsinin I, III hissələrinin mətnlərinin surəti - 2 səhifədə;
2. Azərbaycan Respublikasının "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununun 9.6-cı maddəsinin mətninin surəti - 1 səhifədə;
3. Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının «Elmi-analitik» sektorunun müdiri Məmmədov Mahir Nəcəf oğlunun Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin iclasında Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) nümayəndəsi qismində iştirak etməsi üçün etibarnamə.

**Hörmətlə,** **Səbinə Əliyeva**